**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin orqanı

28 yanvar 2022-ci il
№04 (8962)

www.muallim.edu.az
muallim@edu.gov.az



# Heydər Əliyev Fondunun daha bir töhfəsi

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Binə qəsəbəsində yeni inşa edilmiş Tədris və Xidmət Kompleksinin açılışında iştirak ediblər

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının Xəzər rayonunun Binə qəsəbəsində yeni inşa edilən Tədris və Xidmət Kompleksinin yanvarın 27-də açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Qeyd edək ki, Binə qəsəbəsinin Atçılıq və Təmənis yaşayış massivlərində indiyədək təhsil ocaqları olmadığından şagirdlər yaxın ərazilərdəki tədris müəssisələrində oxumaq məcburiyyətində idilər. Sakinlər bu ərazidə məktəb və uşaq bağçasının inşası ilə əlaqədar Heydər Əliyev Fonduna müraciətlər etmişdilər. Müraciətlər araşdırılıb, bu massivlərdə uşaqların və məktəblilərin təhsil ala biləcəyi məktəb və məktəbəqədər müəssisələrin olmadığı müəyyən edilib. Bu səbəbdən 2020-2021-ci illərdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Binə qəsəbəsində Tədris və Xidmət Kompleksi inşa olunub.

⇨Ardı səh.2

## BU SAYIMIZDA

### SABAH magistraturası




SABAH abreviaturasının açılışı savadlı, bacarıqlı, hazırlıqlı deməkdir. Bu qruplar məhz sadaladığımız keyfiyyətlərə malik gənclərdən formalaşdırılır. Və SABAH qruplarının bakalavr səviyyəsini bitirən neçə-neçə istedadlı, bacarıqlı məzunlarımızın xoş sorağı bu gün istər ölkəmiz, istərsə də onun hüdudlarından çox-çox uzaqlardan gəlməkdədir. Yola saldığımız 2021-ci il isə SABAHın tarixində bu dəfə magistratura səviyyəsində ilk tələbə qəbulunun keçirilməsi ilə yadda qaldı.

⇨səh.4

### Təhsil tələbə krediti alanlar





“Pandemiya hər bir ailə kimi bizə də təsir etdi. Ona görə bu semestr təhsilimi davam etdirə bilmək üçün kredit götürdük və 1300 manat universitetin hesabına köçürüldü. Təhsil haqqının illik məbləği 2600 AZN-dir. 1300 manatı qaldı. Onu da növbəti semestr özümüz ödəməyə çalışacağıq”. Bunları deyən Əli Həsənli 2021-ci ilin noyabrında Təhsil Tələbə Krediti üçün müraciət edən yüzlərlə tələbədən sadəcə biridir.

⇨səh.4

### “Məktəb eyni vaxtda öyrənməyə gələn insanların birliyidir”



“Yeni çağırışlar” onlayn müzakirə proqramının növbəti qonağı “Nyu York Tayms” best-seller müəllifi, “Yaradıcı məktəblər”in həmmüəllifi, redaktor və naşir Lu Aronika təhsilə baxışları və düşüncələrini bölüşüb. Təhsil Nazirliyinin dəstəyi və “T-Network” təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə davam edən “Yeni çağırışlar” proqramının 25 yanvar 2022-ci il tarixində yayımlanan bölümündə Lu Aronika ilə yaradıcı məktəblər barədə danışılıb.

⇨səh.5




## “Mənə ildə 80 min dollar təqaüd ayrılır”

O, çox istedadlıdır. Fitri istedad sahiblərinin malik olduğu bütün üstün keyfiyyətlər onda var. Təkcə bilik və qabiliyyəti, dünyagörüşü ilə deyil, geniş erudisiyası, düşüncəsinin zənginliyi ilə də fərqlidir. Elə bu qabiliyyətləri ilə, mötəbər beynəlxalq bilik müsabiqələrində qazandığı medallarla dünya reytinqində birinci olan Massaçusets Texnologiyalar İnstitutunun (MIT) tələbəsi adını daşıyır. Budəfəki qəhrəmanımız Azərbaycanın fənn olimpiada tarixində öz parlaq uğur hekayəsini yazmış Abutalıb Namazovdur.

### “Hər kəs inanır ki, dünyanı yaxşı dəyişmək üçün töhfə verə biləcək”

*- Dünyanın bir nömrəli universiteti sizə qəbul məktubu göndərir və nüfuzlu ali məktəbə qəbul olunduğunuzu bildirir. Özünüzü MIT-da necə hiss edirsiniz?*

- Mənim qəbul məktubum çox ciddi təbriklə, təriflər və xoş arzular bildirən cümlələrlə başlamışdı, sonda isə yazılmışdı ki, heç narahat olmayan, bu xəbər yalan deyil. Həqiqətən də sevincdən tullanıb-düşə, bağıra, ağlaya bilərsiniz. Hamıya eyni məktub gəlmişdi. Yəni, təkcə bizim ölkədə deyil, ABŞ-ın özündə də MIT-a qəbul çox sevincli, fərqli və qürurverici hissdir. Amma bir neçə ay ərzində tamam yeni hisslər yaranır.

⇨Ardı səh.8

# Heydər Əliyev Fondunun daha bir töhfəsi





⇦ Əvvəli səh.1

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Binə qəsəbəsində yeni inşa edilmiş Tədris və Xidmət Kompleksinin açılışında iştirak ediblər

Kompleksin ərazisində orta məktəb və körpələr evi-uşaq bağçası, stadion və idman sahələri yaradılıb. Ərazi abadlaşdırılaraq müxtəlif növ ağaclar əkilib, həmçinin istirahət parkı salınıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin ərazisində tikilmiş 292 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış oldular.

Bildirildi ki, 1400 şagird yerlik məktəbin dördmərtəbəli binasında sinif, əmək, hərbi və kompüter otaqları, laboratoriya, kitabxanalar, yeməkxana və idman zalı var. Məktəb zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə tam təchiz edilib. Məktəbin həyətində günəş, külək və mexaniki elektrik enerjisi qurğularının modelləri quraşdırılıb.

Binə qəsəbəsinin balaca sakinləri də unudulmayıb. Heydər Əliyev Fondunun təşəbbüsü ilə kompleksdə 192 yerlik körpələr evi-uşaq bağçası inşa edilib.

Bağça ilə tanış olan dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, burada qrup, yataq, oyun və yaradıcılıq otaqları, müəllimlər üçün metodiki otaqlar, idman və akt zalları, yeməkxana və mətbəx yaradılıb. Uşaq bağçası zəruri mebel və avadanlıqlarla təchiz edilib. Həyətyanı ərazidə oyun və idman meydançası da salınıb.

Tədris və Xidmət Kompleksinin ərazisində gündəlik 100 pasiyentə xidmət göstərmək imkanı olan tibb məntəqəsi və 150-yə qədər vətəndaşa xidmət göstərə biləcək poçt məntəqəsi inşa edilib.

Onu da qeyd edək ki, elm və təhsil Heydər Əliyev Fondunun ictimai fəaliyyətinin əsas prioritetləri sırasındadır. Fondun uğurla icra olunan layihələrindən biri “Yeniləşən Azərbaycana - yeni məktəb” proqramıdır. 2005-ci ildən həyata keçirilən layihənin əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdır.

Binə qəsəbəsində yeni inşa edilən Tədris və Xidmət Kompleksi kimi layihələrin icrası ilə Heydər Əliyev Fondu Prezident İlham Əliyevin konseptual təhsil strategiyasının həyata keçirilməsinə əsaslı töhfə verir.





## Tələbələrin köçürülməsi ilə bağlı məlumat

Məlum olduğu kimi, ali və orta ixtisas təhsili müəssisələrində oxuyan tələbələrin köçürülməsi, tələbələr sırasına bərpası və akademik məzuniyyətdən qayıtması məsələlərinə mövcud qanunvericiliyə əsasən, qış və yay tətili müddətlərində baxılır.

2021-2022-ci tədris ili iki həftə gec (29.09.2021) başladığından tədris materiallarının mənimsənilməsi və imtahan sessiyasının təşkili, eləcə də bununla bağlı sənədləşmə işləri əlavə vaxt tələb edir. Bununla əlaqədar olaraq, 2021-2022-ci tədris ilinin ikinci semestrində tələbələrin tədris müddətində gecikmələrin olmaması məqsədilə, qış tətili dövründə *transfer.edu.az* portalı vasitəsilə respublika daxilində, eləcə də xarici ölkələrin ali və orta ixtisas təhsili müəssisələrindən (bir ixtisasdan və (və ya) təhsilalma formasından digərinə) tələbələrin köçürülməsi həyata keçirilməyəcək. Cari tədris ilinin qış tətili dövründə tələbələrin bərpası və akademik məzuniyyətdən qayıtması məsələlərinə ənənəvi qaydada baxılacaq.

Eyni zamanda, köçürülmə və bərpa proseslərinin sadələşdirilməsi məqsədilə normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində müəyyən işlər görülməkdədir.

Qeyd edək ki, tələbələrin respublika daxilində və xarici ölkələrin ali təhsil müəssisələrindən köçürülməsi və tələbələr sırasına bərpası məsələlərinə növbəti dəfə 2021-2022-ci tədris ilinin yay tətili müddətində baxılması nəzərdə tutulur.

## Sürətli fiber-optik bağlantıya qoşulan təhsil müəssisələrinin sayı artır

Azərbaycanda sürətli fiber-optik bağlantı ilə təmin olunan təhsil müəssisələrinin sayı artmaqdadır. Hazırda Azərbaycan Təhsil Şəbəkəsi (ATŞ) ümumilikdə 4292 təhsil müəssisəsini əhatə edir.

Ötən 2021-ci il ərzində 478 təhsil müəssisəsi sürətli fiber-optik bağlantı ilə ATŞ-yə qoşulub. Nəticədə fiber-optik bağlantı ilə şəbəkəyə qoşulmuş ümumi təhsil müəssisələrinin sayı ümumilikdə 726 olub.

Fiber-optik internet bağlantısının təmin edilməsi məktəblərdə məlumatların ötürülmə sürətinin artırılması, yeni Wi-Fi zonalarının yaradılması, sinif otaqlarında yeni kompüter avadanlıqlarının qoşulması və bununla da daxili şəbəkənin genişləndirilməsini mümkün edib. Bununla yanaşı, məktəblərdə tədrisin innovativ formatda təşkil olunması, dərslərin kəsintisiz distant formatda keçirilməsi və dərs zamanı interaktiv alətlərdən istifadə üçün geniş imkanlardan faydalanmaq imkanı yaradılıb.

Qeyd edək ki, Azərbaycan Təhsil Şəbəkəsi müxtəlif pillələr üzrə təhsil müəssisələrini, eləcə də təhsil sahəsində dövlət siyasətini həyata keçirən qurumları vahid şəbəkədə birləşdirən ölkənin ən böyük daxili şəbəkəsidir. Azərbaycan Təhsil Şəbəkəsinin təqdim etdiyi başlıca imkanlar internetə yüksək sürətli çıxışın təmin olunması, internetin zərərli məzmunlardan filtrasiyası, intranet şəbəkəsinin qurulması və intranet üzərindən rabitənin (İP telefoniya, video-konfrans) təşkili, təhsil müəssisəsində videomüşahidə xidmətinin qurulması, eləcə də şəbəkə və avadanlıqlara texniki dəstək xidmətinin göstərilməsidir.

# Təhsil naziri Sabirabadda STEAM Mərkəzi və məktəbin açılışında iştirak edib





Yanvarın 24-də təhsil naziri Emin Əmrullayev Sabirabad rayonuna səfər edib. Əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Səfər çərçivəsində Sabirabad rayonu Mirhüseyn Məmmədov adına Nizami kənd tam orta məktəbinin əsaslı təmirdən sonra açılış mərasimi keçirilib. Mərasimdə təhsil naziri Emin Əmrullayev, millət vəkilləri Kamal Cəfərov, Ramin Məmmədov, Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov, Sabirabad Rayon Təhsil Şöbəsinin müdiri Pəhlivan Qarayev iştirak edib.

Tədbir iştirakçıları məktəbdə yaradılmış şəraitlə tanış olublar.

Bildirilib ki, yeni tikilmiş məktəb 624 şagird yerlikdir. 19 sinif otağından ibarət ümumi təhsil müəssisəsində 3 laboratoriya, 2 texnologiya, 2 informatika, çağırışaqədərki hazırlıq kabineti, məktəbəhazırlıq otağı, 96 yerlik akt zalı, idman zalı, kitabxana və 100 yerlik yeməkxana fəaliyyət göstərəcək.

Daha sonra Sabirabad şəhərindəki Mirzə Ələkbər Sabir adına 1 nömrəli tam orta məktəbdə yaradılan STEAM Mərkəzinin açılışı olub.

Mərkəzdə yaradılmış şəraitlə tanış olan tədbir iştirakçılarına bildirilib ki, Mərkəz regional xarakter daşıyır. Belə ki, Sabirabad rayonunun kəndlərindən, eləcə də Saatlı və digər qonşu rayonlardan olan məktəblilərin də bu Mərkəzdən faydalanması nəzərdə tutulur.

Qeyd edək ki, hazırda ölkə üzrə 100 mindən çox şagirdi əhatə edən STEAM layihəsinin növbəti tədris ilində genişləndirilməsi planlaşdırılır.

## 4 rayonun təhsil ictimaiyyəti ilə görüş

Yanvarın 24-də təhsil naziri Emin Əmrullayev Sabirabad rayonuna səfəri çərçivəsində Sabirabad, Saatlı, İmişli və Beyləqan rayon təhsil şöbə müdirləri və müdir müavinləri ilə görüşüb.

Heydər Əliyev Mərkəzində baş tutan görüşdə qeyd edilən bölgələr üzrə şagird sayı 200-dən çox olan məktəblərin direktorları da iştirak edib.

Görüş zamanı sözügedən bölgələrdə təhsil sahəsinin mövcud problemləri və onların həlli istiqamətində müvafiq fikirlər səsləndirilib.

Sonda görüş iştirakçılarının sualları cavablandırılıb.

## Gəncə və Samuxda



Yanvarın 21-də Gəncə şəhər Məhəmməd Hadi adına 10 nömrəli tam orta məktəb üçün yeni tikilmiş tədris binasının açılış mərasimi keçirilib.

Açılış mərasimində təhsil nazirinin müavini Muxtar Məmmədov, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev və Gəncə Şəhər Təhsil İdarəsinin müdiri Anar Qədiməliyev iştirak edib.

Açılış mərasiminin iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Tədbir iştirakçıları daha sonra məktəbdə yaradılmış şəraitlə yaxından tanış olublar.

Bildirilib ki, məktəb binası 760 şagird yerlikdir. Üç mərtəbəli təhsil müəssisəsində 31 sinif otağı, 2 informatika kabineti, 6 laboratoriya, müəllim otağı, elektrik otağı, həkim otağı, 4 texniki otaq, kitabxana və oxu zalı, 160 yerlik bufet, 180 nəfərlik akt zalı, qəbul otağı, qarderob və 24 sanitar qovşağı müəllim və şagirdlərin ixtiyarına verilib. Məktəbin 2 emalatxanasında tədrisin yüksək səviyyədə təşkili üçün hərtərəfli şərait yaradılıb. 2 idman zalı zəruri avadanlıqla təchiz edilib.

Qeyd edək ki, son 10 ildə Gəncə şəhərində 12 məktəb əsaslı təmir edilib.

***

Yanvarın 21-də Samux rayon H.Zərdabi adına Çobanabdallı kənd tam orta məktəbi üçün yeni inşa edilmiş tədris binasının da açılış mərasimi keçirilib.

Tədbirdə təhsil nazirinin müavini Muxtar Məmmədov, Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev, Təhsil Nazirliyinin Əsaslı tikinti və təchizat idarəsinin rəisi Anar Axundov və Samux Rayon Təhsil Şöbəsinin müdiri Nurlana Həsənova iştirak edib.

Qeyd edilib ki, yeni tikilən təhsil müəssisəsi 624 şagird yerlikdir. Məktəbdə müasir təhsil standartlarına uyğun 24 sinif otağı, məktəbəhazırlıq, fənn kabinetləri və laboratoriyalar, informatika, hərbi hazırlıq kabineti, akt və idman zalları, kitabxana və yeməkxana mövcuddur. Məktəb binasında videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri, internet və telefon xətləri çəkilib. Təhsil müəssisəsində şagirdlərin təlim-tərbiyəsi ilə 49 nəfərdən ibarət pedaqoji heyət məşğul olacaq.

Açılışdan sonra qonaqlar məktəbdə yaradılmış şəraitlə tanış olublar.

## Ağcabədi rayonunda



Yanvarın 21-də Ağcabədi Rayon M.Uluxanov adına Sarıcalı kənd tam orta məktəbi üçün tikilmiş yeni tədris binasının açılış mərasimi keçirilib.

Açılış mərasimində təhsil nazirinin müşaviri Elnur Nəsibov, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, Ağcabədi Rayon Təhsil Şöbəsinin müdiri İsmayıl Həsənov iştirak edib.

Açılış mərasiminin iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Tədbir iştirakçıları daha sonra məktəbdə yaradılmış şəraitlə tanış olublar.

Bildirilib ki, yeni tikilmiş məktəb 360 şagird yerlikdir. 16 sinif otağından ibarət ümumtəhsil müəssisəsində 3 laboratoriya, 2 texnologiya, informatika, gənclərin çağırışaqədərki hazırlığı kabineti, məktəbəhazırlıq otağı, 216 yerlik akt zalı, idman zalı, kitabxana və 120 yerlik yeməkxana fəaliyyət göstərəcək.

# Təhsil tələbə krediti alanlar

## Gənclər dövlətin yaratdığı bu imkandan faydalanırlar

**“Pandemiya hər bir ailə kimi bizə də təsir etdi. Ona görə bu semestr təhsilimi davam etdirə bilmək üçün kredit götürdük və 1300 manat universitetin hesabına köçürüldü. Təhsil haqqının illik məbləği 2600 AZN-dir. 1300 manatı qaldı. Onu da növbəti semestr özümüz ödəməyə çalışacağıq”. Bunları deyən Əli Həsənli 2021-ci ilin noyabrında Təhsil Tələbə Krediti üçün müraciət edən yüzlərlə tələbədən sadəcə biridir. UNEC-də maliyyə və mühasibat fakültəsinin tələbəsidir. Maliyyə ixtisasına yiyələnən Əli Həsənli üçün kredit ona verilən böyük bir imkandır və o, bu imkanı uğurla dəyərləndirib.**



Əli Həsənli



Elşad Liftizadə

### Artıq 686 nəfərə kredit verilib

Ötən il noyabrın 25-dən ölkəmizdə ilk dəfə təhsil tələbə krediti üçün müraciətlərin qəbuluna başlanılıb.Həmin vaxtdan keçən iki ay müddətində banka rəsmiləşmə üçün göndərilmiş müraciət sayı 2000-i ötüb. Yanvarın 26-na olan məlumata görə, onlardan 686 nəfərə kredit verilib. Hazırda 1356 müraciət icradadır.

Təhsil Tələbə Krediti Fondu İdarə Heyətinin sədr müavini Bəhruz Əzimov “Azərbaycan müəllimi” qəzetinə açıqlamasında bildirib ki, prosesin gedişi hədəfə yaxınlaşdığımızı göstərir: “Təhsil tələbə kreditinin ayrılmasında məqsəd təhsilin hamı, xüsusilə də əhalinin aztəminatlı təbəqələrindən olan şəxslər üçün əlçatanlığının təmin edilməsidir. Təhsildə bərabər imkanlar yaratmağa və təhsilin əhatə dairəsinin genişləndirilməsinə çalışırıq. Müşahidələrimizə görə, buna nail oluruq. Əlimizdə olan məlumata görə, 264 nəfərə sosial, 422 nəfərə standart kredit verilib. Bu da 686 tələbənin təhsil haqqı probleminin çözülməsi deməkdir”.

Xatırladaq ki, Nazirlər Kabineti tərəfindən təsdiqlənmiş müvafiq qaydaya əsasən, təhsil tələbə kreditinin sosial və standart növləri mövcuddur. Sosial təhsil tələbə kreditindən yalnız sosial həssas təbəqəyə aid ailələrin üzvü olan tələbələr istifadə edir və onlara kreditlər güzəştli şərtlərlə verilir.

B.Əzimovun sözlərinə görə, tələbə təhsil kreditinin ən böyük üstünlüklərindən biri də uzunmüddətə - 15-22 ilə verilməsidir: “Təhsilin normativ müddətində, güzəşt və möhlət dövründə kreditə faiz hesablanmır, qaytarılması tələb olunmur. İstər faizlərin hesablanmasında, istərsə də kreditin qaytarılmasında təhsilin nəticələrindən asılı olaraq güzəştlər tətbiq olunur. Tələbə krediti məzun olduqdan və güzəşt dövrü bitdikdən sonra qaytarır”.

### “İndi daha yaxşı öyrənməyə çalışıram”

Dövlətin yaratdığı bu fürsəti inamla dəyərləndirən gəncləri onun daha çox “Tələbə krediti məzun olduqdan və güzəşt dövrü bitdikdən sonra qaytarır” cümləsi ilə ifadə olunan şərti həvəsləndirir. Bu, gənclərə dövlətin güvəndiyinin göstəricisidi. Elşadı bu, çox həvəsləndirib. Ən çox da atasının çiyinlərindən özünün yükünün bir qismini ala bilməsinə sevinir.

Beləliklə, Elşad Liftizadə təhsili öz hesabına alacaq, indi aldığı təhsilin haqqını məzun olub işə başladıqdan sonra qaytaracaq 686 tələbədən biridir. Azərbaycan Dövlət İqtisad Universitetində Biznes və menecment ixtisası üzrə təhsil alır. Hazırda III kursda oxuyur. Deyir, ödənişli əsaslarla təhsil almaq çətindi: “Təhsil haqqı yüksəkdi və atamın onu ödəmək üçün əziyyət çəkdiyini görürəm. Düzdü, ustalıqla çətin də olsa, birinci il bunun öhdəsindən gəldi. Ancaq bu, növbəti illərdə çətin olacaqdı. Ona görə də birinci kursda ovqatım çox aşağı idi, oxumaq istəmirdim. Ötən il pandemiya ilə əlaqədar sosial təminatı aşağı olan ailələrin övladlarının təhsil haqqını dövlət ödədi. Həmin ailələrdən biri də mənimkiydi. Bu il də dövlətimiz, dövlətin ayırdığı təhsil krediti dadımıza yetişdi. Bu semestrin pulu - 1100 AZN təhsil haqqı universitetin hesabına köçürüldü. Düşünürəm ki, növbəti semestr də tələbə kreditindən istifadə edəcəyəm. Artıq atamın mənim üçün təhsil haqqı ödəməyini istəmirəm”.

Atasının həm təhsil haqqı ödəyib, həm Bakıda onun yaşayış xərclərini çəkməsindən mənəvi narahatlıq hiss edən gənc Elşad Liftizadə üçün kredit imkanı təhsil haqqını özünün ödəməsi üçün ona verilən şans olub: “Bilirəm ki, təhsilimin haqqını valideynim yox, özüm ödəyəcəyəm. Bu öhdəliyi valideynimin üzərindən götürə bilməyim məni daha da həvəsləndirdi. İndi daha yaxşı öyrənməyə çalışıram ki, daha yaxşı kadr olum və borcumu asanlıqla ödəyim”.

Elşad deyir valideynləri ay ərzində onun digər xərclərinə 300 manat pul ayırır. O, bu yükü də ailəsinin üzərindən götürmək istərdi: “İkinci kursda pandemiya səbəbindən təhsil haqqımı dövlət ödəyəndən sonra oxumağa həvəsim artdı. Nəticədə, akademik göstəricilərim yüksəldi. Düzdür, bir neçə balım çatmadığı üçün tamamilə faizsiz kredit götürmək imkanım olmadı. Ancaq bütün hallarda təhsil haqqımı özüm ödəyə biləcəyim üçün xoşbəxtəm və ixtisasımla bağlı hər şey mənə maraqlıdır”.

Əminliklə, bundan sonra öz hesabına oxumaq istəyir, dövlətin ona təklif etdiyi kreditlə. Çünki xəyallarında məzun olduqdan sonrakı həyatı çox parlaqdı: “Məzun olan kimi Cəlilabada qayıdacağam. Əvvəlcə hərbi xidmətə gedib vətənə olan borcumu ödəyəcəyəm. Sonra rayonda iş tapacaq, təhsilim üçün götürdüyüm krediti bağlayacağam. İş qurmaq, biznesimi inkişaf etdirmək üçün öz üzərimdə işləməyə başlamışam. İxtisasım idarəetmədir, ixtisasım üzrə daha çox və vacib bilik və bacarıqlara yiyələnmək üçün əlimdən gələni edirəm. Hesab edirəm ki, indi qatıldığım kurslar, təlimlər gələcəkdə öz biznesimi qurub xərcimi-borcumu düzgün idarə etməyimə kömək edəcək”.

**Ruhiyyə DAŞSALAHLI**

# SABAH magistraturası

**Fərqli mühit, fərqli münasibət, fərqli tədris... Bu, SABAH qruplarına xas özəlliklərdir. Savadlı, bacarıqlı və hazırlıqlı tələbə yetişdirilməsi, əmək bazarının artan tələblərinə müvafiq olaraq kadr hazırlığının təmin edilməsi məqsədilə yaradılan SABAH qruplarını Azərbaycanın təhsil tarixində son illərin ən uğurlu layihələrindən biri kimi dəyərləndirmək olar. 2014-2015-ci tədris ilində 34 ixtisas üzrə 7 dövlət ali təhsil müəssisəsində yaradılan SABAH qrupları peşəkar mütəxəssis olmaq istəyən hər bir tələbəyə yeni imkanlar açmaqdadır. İldən- ilə həm bu qrupların daha çox ali təhsil müəssisələrini əhatə etməsi, ixtisasların sayının artması, həm də tələbələrin həmin qruplarda təhsil almalarına böyük maraq göstərməsi nəticə etibari ilə Azərbaycanın ali təhsilinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.**

## Beynəlxalq standartlara uyğun, keyfiyyətli ali təhsil imkanları

### XXI əsrin və əmək bazarının tələblərinə uyğun

SABAHın, ümumiyyətlə, savadlı, bacarıqlı, hazırlıqlı mütəxəssislərin yetişdirilməsini hədəfləyən bir layihə olduğunu söyləyən şöbə müdiri eyniadlı magistraturanın da açılmasının XXI əsrin və əmək bazarının tələblərinə uyğun kadr potensialının hazırlanmasında önəmli rolunun olacağını xüsusi qeyd edir: “Yüksək səviyyədə ixtisaslaşacaq magistr gənclərimizin müasir dövrün tələblərinə cavab verməklə yanaşı, onlarda tədqiqatçılıq qabiliyyətinin formalaşması, xarici dildə ünsiyyət bacarıqlarının ən yüksək səviyyədə olması gözləntilərimiz sırasındadır. SABAH magistratura qrupları olan ixtisaslaşmalarda sənaye ilə əməkdaşlıq çərçivəsində yeni təhsil məzmunu hazırlanıb ki, məhz həmin məzmun da daha çevik, əmək bazarının tələblərinə uyğun dizayn edilib”.

Bəli, SABAH qruplarının yaradılması ideyasının əsasında bir tərəfdən, ali təhsilin keyfiyyətinin yüksəldilməsi qarşıya məqsəd kimi qoyulursa, digər önəmli məsələlərdən biri də ölkəmizə lazım olan yüksək ixtisaslı mütəxəssislərin xaricdə deyil, məhz ölkəmizin ali məktəblərində hazırlanması durur.

Layihənin əsas məqsədi ali təhsil sahəsində davamlı, uzunmüddətli, hərtərəfli və əhatəli keyfiyyət dəyişikliklərinin həyata keçirilməsi üçün zəruri mühitin yaradılması, Azərbaycan gənclərinin fərdi və peşəkar inkişafına dəstək olmaq, dünyanın aparıcı ali məktəbləri ilə əməkdaşlıq layihələri, elmi-tədqiqat, təcrübə, tələbə mübadilələrinin genişləndirilməsi, əmək bazarının tələblərinə uyğun olaraq Savadlı, Bacarıqlı və Hazırlıqlı mütəxəssislərin yetişdirilməsidir. Elə SABAH abreviaturasının açılışı da savadlı, bacarıqlı, hazırlıqlı deməkdir. Bu qruplar məhz sadaladığımız keyfiyyətlərə malik gənclərdən formalaşdırılır. Və SABAH qruplarının bakalavr səviyyəsini bitirən neçə-neçə istedadlı, bacarıqlı məzunlarımızın xoş sorağı bu gün istər ölkəmiz, istərsə də onun hüdudlarından çox-çox uzaqlardan gəlməkdədir. Yola saldığımız 2021-ci il isə SABAHın tarixində bu dəfə magistratura səviyyəsində ilk tələbə qəbulunun keçirilməsi ilə yadda qaldı.

### İlk 364 magistrant

2021-2022-ci tədris ilində SABAH qruplarına 29 ixtisas üzrə bakalavr səviyyəsinə 724 tələbə qəbul olunub. SABAHın ən yaddaqalan yeniliyi isə qeyd olunduğu kimi, 2021-ci ildə ilk dəfə olaraq magistratura səviyyəsində tələbə qəbulunun keçirilməsidir ki, artıq 364 gənc SABAH magistri adını qazanıb.

Bəli, Təhsil Nazirliyinin təşəbbüsü ilə yaradılan SABAH magistraturası artıq öz bilik və istedadına, bacarığına güvənən hər bir Azərbaycan gəncinə xaricə getmədən, beynəlxalq standartlara uyğun, keyfiyyətli ali təhsil imkanları yaratmaqdadır.

Onu da qeyd edək ki, yeni magistr proqramlarının təsis edilməsi ilə bağlı Təhsil Nazirliyi tərəfindən qərar qəbul edilib və 7 ixtisas sahəsi üzrə magistr ixtisaslaşmaları aparılır.

Elə həmsöhbətimiz olan Təhsil İnstitutunun Peşə və ömürboyu təhsil şöbəsinin müdiri Səbinə Babayeva da SABAHın magistratura səviyyəsinə qəbulun gənclərimizə geniş imkanlar yaratdığını söyləyir. Onu da bildirir ki, öz fəaliyyətində elmi-nəzəri, eyni zamanda praktiki məsələləri hər zaman diqqətdə saxlayan Təhsil İnstitutu bir çox mühüm layihələr icra edir: “Ali təhsil müəssisələrimizdə SABAH qruplarının magistraturasında açılan ixtisaslar yenidir. Belə ki, Azərbaycan Dövlət Pedaqoji Universitetində “Təlim və tədrisin təşkili”, Azərbaycan Texniki Universitetində “Nəqliyyat və logistika”, Bakı Dövlət Universitetində “Kompüter elmləri və texnologiyaları”, Azərbaycan Dövlət İqtisad Universitetində “Elektron kommersiya”, Bakı Mühəndislik Universitetində “Kibertəhlükəsizlik”, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində “Süni intellekt”, Azərbaycan Memarlıq və İnşaat Universitetində “Dayanıqlı şəhərsalma və region planlaşdırılması” müasir dövrün tələblərinə cavab verən ixtisaslardır”.

Ali təhsilin magistratura səviyyəsi üçün həyata keçirilən “SABAH magistratura” proqramından söz açan Səbinə Babayeva onun icrasına 2021-ci ilin yanvarından başlanıldığını bildirir: “Bilirsiniz ki, Təhsil İnstitutu ali təhsil müəssisələrinin proqram çərçivəsində elan etdiyi qrant müsabiqələrinə qatılıb və üç müsabiqənin qalibidir. Bunlar Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Təlim və tədrisin təşkili”, Azərbaycan Texniki Universitetinin “Nəqliyyat və logistika”, Bakı Dövlət Universitetinin “Kompüter elmləri və texnologiyaları” ixtisaslaşmasıdır. Və Təhsil İnstitutu adları qeyd olunan hər 3 universitetdə həyata keçirilən “SABAH magistratura” proqramının məzmununun hazırlanmasına, tələbələrin dərsdənkənar fəaliyyətlərinin təşkilinə və digər işlərin həyata keçirilməsinə məsuldur. İnstitutumuz tərəfindən adları qeyd olunan ali təhsil müəssisələrində yerli əmək bazarının tələbləri, həmçinin beynəlxalq təcrübələr araşdırılaraq təhsil proqramları hazırlanıb. Həmin ali məktəblərdə payız və yaz semestrlərində tədris aparan müəllimlər seçilib, sənaye nümayəndələri üçün “Ali məktəb pedaqoqu” adlı təlimlər, həmçinin tələbə və müəllimlərə oriyentasiya tədbirləri təşkil olunub”.

S.Babayevanın sözlərinə görə, tələbələrin dərsdənkənar fəaliyyətləri üzrə silsilə tədbirlərin-təlim və vebinarların təşkili də diqqətdə saxlanılan məsələlərdəndir. Eyni zamanda, həmin təhsil müəssisələrində maddi-texniki bazanın qurulması, tədris resurslarının hazırlanması ilə bağlı bir sıra işlər görülür. Universitet-sənaye əməkdaşlığını genişləndirmək, tələbələrin istehsalat təcrübəsinin təşkili məqsədilə nüfuzlu şirkət və qurumların işəgötürənləri ilə danışıqlar aparılır.

### Müəllim seçimlərinə xüsusi yanaşma

Həmçinin hər bir ixtisaslaşma üzrə müəllim seçimlərinə xüsusi yanaşma tətbiq olunub, ali təhsil müəssisələrinin akademik heyəti ilə yanaşı, əmək bazarının təmsilçiləri, sahə üzrə yüksək ixtisaslı, beynəlxalq təcrübəsi olan mütəxəssislər tədris prosesinə cəlb ediliblər. Tələbələrin ingilis dili biliklərinin daha da artırılması üçün Britaniya Şurası tərəfindən ARDNŞ-in maliyyə dəstəyi ilə fakültativ məşğələlər keçirilir.

### Ali təhsilin növbəti səviyyəsində təhsil almaq üçün heç bir xarici ölkəyə getmədən...

Ölkəmizin Vətən müharibəsindəki tarixi qələbəsi - torpaqlarımızın işğaldan azad edilməsi gələcək uğurlarımızın başlanğıcıdır. İndi dünyanın əksər inkişaf etmiş ölkələri Azərbaycanla qarşılıqlı etimada əsaslanan əməkdaşlığa can atır. Bu, bir daha onu göstərir ki, Azərbaycan həqiqətən də etibarlı, ciddi və böyük nailiyyətlərə imza atan tərəfdaş ölkədir. Artıq sürətlə dəyişən dünyamızda uğura gedən yolun peşəkar bilik və bacarıqların, innovasiyalara açıq olmaq qabiliyyətinin birliyindən keçdiyini görürük. Və bizim ölkəmizin gələcəyini təmsil edən yüksək savada malik, bacarıqlı və hazırlıqlı gənclərimizə daha çox ehtiyacımız var. Əminik ki, bu ehtiyacları ödəmək iqtidarında olan, dünya təhsilinin imkanlarını yaradan, beynəlxalq standartlara uyğun SABAH magistraturası neçə-neçə zəkalı, istedadlı, bacarıqlı gənclərimizi bizlərə bəxş edəcək. Özü də ali təhsilin növbəti səviyyəsində təhsil almaq üçün heç bir xarici ölkəyə getmədən... Öz ölkəmizdə!

**Samirə KƏRİMOVA**

# "Məktəb eyni vaxtda öyrənməyə gələn insanların birliyidir"







**"Yeni çağırışlar" onlayn müzakirə proqramının növbəti qonağı "Nyu York Tayms" bestseller müəllifi, "Yaradıcı məktəblər"in həmmüəllifi, redaktor və naşir Lu Aronika təhsilə baxışları və düşüncələrini bölüşüb. Təhsil Nazirliyinin dəstəyi və "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə davam edən "Yeni çağırışlar" proqramın 25 yanvar 2022-ci il tarixində yayımlanan bölümündə Lu Aronika ilə yaradıcı məktəblər barədə danışılıb. "T-Network"un koordinatoru, təhsilin idarə olunması üzrə mütəxəssis Cəfər Mənsiminin təqdimatında davam edən proqram Təhsil Nazirliyinin "Facebook" səhifəsi üzərindən Mətin Axundlunun tərcüməsi ilə Azərbaycan dilində canlı yayımlanıb.**

## Dünya şöhrətli yazıçı Lu Aronika "Yeni çağırışlar"da

### Yaradıcılığın bünövrəsi

Proqramın bu buraxılışının məşhur azərbaycanlı milyonçu, xeyriyyəçi, müsəlman şərqində ilk dünyəvi Qızlar Məktəbinin yaradıcısı Hacı Zeynalabdin Tağıyevin doğum gününə təsadüf etdiyi üçün Qızlar Məktəbinin təsviri fonunda qonağı və izləyiciləri salamlayan görüşün aparıcısı Cəfər Mənsimi dünya şöhrətli yazıçı Lu Aronikanı onlara yaxından təqdim edib. O qeyd edib ki, Lu Aronika tanınmış yazıçı Ken Robinson ilə birlikdə "Nyu York Tayms" bestsellerinin, "Yaradıcı məktəblər", "Sən, övladın və məktəb: ən yaxşı təhsilə aparan bələdçi", "Öz gücünü tap" kitablarının həmmüəllifi, o cümlədən "Sonsuz il", "Qışda kəşf", "Yarpaqlar" və digər əsərlərin müəllifidir.

Aparıcının qonağa ünvanladığı ilk sual yazıçının yaradıcılıq və özünükəşf yoluna başlamağı, yaradıcılıq qapısını necə açması, özünü nə qədər reallaşdırdığını düşünməsi barədə olub. Erkən yaşlarından yaradıcılığa çox önəm verən müəllimlərdən dərs aldığını qeyd edən L.Aronika təhsil illərinin ABŞ-da inqilabi dövr yaşandığını, hesablama və hafizə ilə yanaşı öyrənənlərə digər alternativ imkanların, qabiliyyətlərin də aşılandığını, bunun nəticəsi olaraq kreativ yanaşmaya sahib olduğunu, yaradıcılığını təhsilə sərf etdiyini, təfəkkürünü əsərlərində təcəssüm etdirdiyini diqqətə çatdırıb. Şagirdlərə düşünməni necə həyata keçirməyi öyrətməyin vacibliyindən danışan qonaq məşhur caz musiqiçisi Mayls Devisin dediyi "Yaxşı improvizə etmək üçün siz musiqinin əsaslarını bilməlisiniz" sözlərinin təhsildə də keçərli olmasını vurğulayıb. Lu Aronika insanları düşünməyə həvəsləndirməyin dəyişiklik yaratmaq üçün ən mühüm məqam olduğunu deyib: "Müəllimlərimiz bizim düşünməyimiz, özümüzü dərk etməyimiz üçün çox çalışırdılar. Əlbəttə, onların eşitmək istədikləri cavablar var idi, lakin bu cavabları bizdən almaq üçün onlar israr etmirdilər. Ən böyük təsir düşünmək, oxumaq, öyrənmək, özünü kəşf etməkdən ibarətdir".

### Müəllimlik arzusu

Lu Aronika məktəbi bitirdikdən sonra müəllim olmaq istəyi, lakin müsabiqədən keçə bilməyərək başqa iş tapması, daha sonra kitab biznesinə keçməsi, yazıçı olmaq qərarına gəlməsi haqqında bəhs edib. Bildirib ki, müəllim olsaydı özünü mümkün qədər yaxşı ifadə edər, dərs deyəcəyi şəxsləri ədəbiyyata, yaradıcılığa, yazıçılığa həvəsləndirərdi: "Mən indi tədris otağında, sinifdə olsaydım çalışardım ki, uşaqlar kifayət qədər inklüziv şəraitdə təhsil alsınlar, öyrənmə baxımından ac, sözün yaxşı mənasında aqressiv olsunlar. Şagirdlərə mümkün qədər məlumatcanlı olmaq, hər şeylə maraqlanmaq mesajı çatdırardım. Təhsildə öyrənməyə can atmaq, maraqcanlı olmaq çox vacibdir".

Qonaq bildirib ki, məktəblərdə hər bir uşaq fərqli öyrənmə tərzinə malikdir və bu səbəbdən hər şagirdə fərdi yanaşmaq lazımdır. Şagirdlər isə, öz növbəsində, mümkün qədər şüurunu açmalı, maraqlandıqları məsələləri araşdırıb öyrənməyə çalışmalıdır. Lu Aronika hesab edir ki, yaradıcı məktəblərin əsas xüsusiyyətləri fərdin özünü ifadə imkanlarının yaradılması üçün şəraitin olması, mümkün qədər çox fürsətin qazandırılması, şagirdləri dünyanı kəşf etməyə həvəsləndirilməsindən ibarətdir.

"Məktəb direktorları necə yaradıcı rəhbər və lider ola bilərlər?" sualını cavablandıran bestseller müəllifi qeyd edib ki, direktorlar müəllimlərə inanmalı, dəstəkləməli, lazımi şərait yaratmalı, həvəsləndirməlidirlər və eyni zamanda onların şagirdlərlə fərdi qaydada işləmələrinə nəzarət etməlidirlər.

Cəfər Mənsiminin "Obrazları müəllim, şagird, valideyn olan kitab yazsaydınız qəhrəmanınız kim olardı və niyə?" sualına cavab olaraq yazıçı birmənalı şəkildə həmişə qəhrəmanının şagird olacağını vurğulayıb. L.Aronika "Yaradıcı məktəblər" kitabından misal gətirərək təhsilin əsas məqsədinin uşaqları qəhrəmana çevirmək olduğunu qeyd edib.

### Ən yaxşı təhsilin dizaynı

"Siz, övladınız və məktəb: ən yaxşı təhsilə aparan bələdçi" kitabının həmmüəllifi ən yaxşı təhsil sistemində məktəblərdə uşaqların sosial, iqtisadi, məişət imkanlarının müxtəlifliyindən asılı olmayaraq coşqulu, maraqcanlı olması və bütün şagirdlərin nəzərə alınmasının çox vacibliyini qeyd edib. O bildirib ki, ən yaxşı məktəblər hər kəs üçün eyni imkanlar təmin etməlidir.

Lu Aronika birlikdə 4 kitab yazdığı dünya şöhrətli yazıçı Ken Robinson haqqında danışarkən onun çox ilhamlandırıcı bir şəxsiyyət olduğunu önə çəkib. Qonaq hər kəsin potensialının olması, görməli olduğu işləri kəşf etməyin vacibliyi kimi məqamları Ken Robinsondan öyrəndiyi ən əsas dərs kimi dəyərləndirib. Diqqətə çatdırıb ki, "Cənab Robinsonla yazdığımız birinci kitab "Element" adlanır. İnsanlar öz elementini, sevdiyi işi tapdıqdan sonra xoşbəxt olurlar. Bir çox şeyi sevə bilərsiniz, lakin bacarığınız, istedadınız olan işlə məşğul olmaq çox önəmlidir. Mümkün qədər özünüzü dünyaya açın, əgər sizi nəsə cəlb edirsə, onun arxasınca gedin. O zaman dəyişən şəraitə belə özünüzü uyğunlaşdıra biləcəksiniz".

Yazıçı təhsildə yaradıcılığın qiymətləndirilməsi barədə danışarkən qiymətləndirməni aparan şəxslərin, nəyi necə qiymətləndirməyin lazım olduğunu bilən insanların düzgün seçilməsinin çox vacibliyini bildirib.

Uşaqlarda güclü öyrənmə iştahasının olması, lakin məktəbə getdikcə bu marağın azlması məsələsinə toxunan bestseller müəllifi uşaqlara sevdikləri işlə məşğul olmağa imkan verilsə, vaxtlarının böyük hissəsini maraqlandıqları sahəyə ayırmağa şərait yaradılsa onlardakı kəşf etmək həvəsinin heç vaxt sönməyəcəyini dilə gətirib. Qonaq tanınmış professor Hovard Qardnerin "Çoxşaxəli zəka nəzəriyyəsi"ndə qeyd olunan 12 öyrənmə tərzinə əsaslanaraq uşaqların necə öyrənməyini müəyyən etməyi tövsiyə edib.

### Meta dünyası təhsildə

"Yeni çağırışlar"ın aparıcısı C.Mənsiminin "Gələcək dünya, virtual reallıq, rəqəmsal transformasiya fonunda təhsilin məqsəd və vəzifələrinin hansı istiqamətdə dəyişəcəyini və ya dəyişməli olduğunu düşünürsünüz?" sualının qarşılığında bestseller müəllifi qeyd edib ki, virtual reallıq təhsilin reallaşmasını asanlaşdırır, əvvəl bağlı olan qapıları açır, öyrənənlərə sürətlə hərəkət etməyə fürsət verir, təhsilin fərdiləşməsi, təkbətək ünsiyyət üçün böyük imkanlar yaradır. Bu baxımdan, yazıçı meta dünyasını "ən gözəl müttəfiq" adlandırıb, təhsil vəzifələrinin yalnız müsbət istiqamətdə dəyişəcəyini vurğulayıb.

"Təhsil sistemini yenidən qursaydınız məktəblərin hansı yeni formaları olardı? Məktəbə getmək məcburiyyəti qalardımı?" sualına Lu Aronika "Məktəbə getmək məcburiyyəti həmişə olacaq, bu müstəsnadır. Düşünürəm ki, nə vaxtsa hər insanın ilk 10 illik həyatında məktəb olmasın. Mən təhsil sistemini yenidən qursaydım çox şey virtual və fərdi olardı. Məktəblərə müstəsna sayda imkanlar qazandırmağı deyə bilərəm" fikirləri ilə cavab verib.

### 8 guşəli yeni çağırışlar

Proqramın ənənəvi "Təhsildə yeni çağırışları 8 guşəli ulduza bənzətsək, onun guşələri hansı çağırışlardan ibarət olar?" sualını cavablandıran yazıçı aşağıdakıları sadalayıb: "1.Fərdilik, individual yanaşma; 2.Kompleks düşünmə; 3.Uyğunlaşmaq bacarığı, adaptasiya qaçılmazdır; 4.Maraqcanlı, elmcanlı olmaq; 5.Tədris etmək, dünyaya açılmaq imkanının olması; 6.Əlçatanlıq, nəyisə kəşf etmək üçün imkanları əlçatan etmək; 7.Kəşf etmək iştahası; 8.Öyrənmək üçün birliyin olması. Məncə birlik, icma kimi məqamların dərk edilməsi əsas çağırışlardan biridir. Məktəblərin dünyanı bir yerdə kəşf etməsi çox vacibdir".

Sonda T-Network-un koordinatoru Cəfər Mənsimi Təhsil Nazirliyinin sifarişi ilə Lu Aronikanın Ken Robinsonla birlikdə yazdığı "Yaradıcı məktəblər" kitabının Azərbaycan dilinə tərcümə olunduğu barədə məlumat verib. Yazıçının "Yeni çağırışlar" proqramında səsləndirdiyi dəyərli fikirlərini "masterklass" adlandıran aparıcı Lu Aronikanın "Məktəb eyni vaxtda öyrənməyə gələn insanların birliyidir" fikri ilə görüşü tamamlayıb.

**Lamiyə ƏLİMƏRDANOVA**

Dünya təcrübəsi

**Çin Xalq Respublikası (ÇXR) hazırda STEAM təhsilə çox böyük əhəmiyyət verən bir dövlətə çevrilib. Ölkə həyatının hər bir sahəsində bu təhsilin vacibliyi duyulur. Çində STEAM metodologiyası yalnız nəzərdə tutduğumuz elm, texnologiya, mühəndislik, incəsənət, riyaziyyat deyil, daha çox geniş mənada - "kvazi STEAM təhsili" anlamındadır. Buraya STEM fənləri, incəsənət, robot texnikası, kodlaşdırma, tənqidi düşüncə, yaradıcı təhsil və Çin xarakterli Suji Təhsili (sağlamlığı, təhsili, zadəganlığı və s. əhatə edən xarakter) daxildir.**



# STEAM Çində

Çin şagirdləri PISA (Programme for International Student Assessment), TIMSS (Trends in International Mathematics and Science Study), PIRLS (The Progress in International Reading Literacy Study) kimi beynəlxalq qiymətləndirmə proqramlarında oxu, riyaziyyat və dəqiq elmlər üzrə ən yüksək nəticə nümayiş etdirərək lider mövqedə qərarlaşırlar.

## STEM/STEAM təhsilə keçid

STEAM təhsil konsepsiyası Çində 2013-cü ildə təqdim edilsə də, STEAM metodikasının təhsildə tətbiqinə 2017-ci ildə start verilib. 2015-ci ildə ölkədə STEAM təhsilinə dəstək verən startap şirkətləri yaranıb, investorlar bu sahəyə yatırım ediblər. Çinin "Xiomi" şirkəti 2016-cı ildə STEAM təhsili üçün "Mitu robot" məhsulunu buraxıb, "Tencent" şirkəti uşaqlar üçün rəqəmsal proqramlaşdırma təhsili verən "Scratch" şirkəti, "NetEase" şirkəti isə STEAM məhsulları istehsalı məqsədilə "Lego Education" ilə əməkdaşlıq elan edib.

2017-ci ilin fevralında Çinin təhsil naziri Çen Baoşenq qəbul imtahanlarında islahat və Çin tələbələrinin əsas keyfiyyətlərinin inkişafı proqramı (Chinese Student Core Qualities Development Programme) barədə açıqlama verib. Həmin islahatlar son dövrlər Çində təhsil sahəsində aparılan ən vacib siyasi dəyişikliyə səbəb olur, yalnız qiymətləndirilməyə əsaslanan köhnə modeli sıradan çıxararaq ölkədə STEAM təhsil dövrünün yaranmasına təkan verir. Eyni zamanda ölkənin təhsil naziri ibtidai və orta sinif şagirdlərinin dərsdənkənar yükünün azaldılması barədə əmr imzalayır. Əlavə təhsil təşkilatları bu səbəbdən yeni təhsil mühitinə uyğunlaşmaq üçün islahatlar aparmalı olurlar.

2018-ci ildə Pekində Çinin "STEM təhsili üzrə fəaliyyət planının", həmçinin Fanqkaodi Beynəlxalq Məktəbində ibtidai siniflər üçün STEAM proqramı üzrə ilk dərsliyin təqdimatı keçirilir. Tədris meteriallları seriyası layihə əsaslı tədrisə əsasən hazırlanır və şagirdlərdə düşünmə bacarığının inkişafına yönəlir. Dərsliklər Pekin Pedaqogika Universitetinin professorları və digər görkəmli müəllimlər tərəfindən işlənir. Çin üçün bu hadisə rəsmi olaraq ölkədə ibtidai sinif səviyyəsində STEAM təhsilə keçid əlaməti kimi qəbul olunur.

Bu gün Çində həm şagirdlər, həm də valideynlər arasında STEAM təhsilə maraq günü-gündən artmaqdadır. Proqramlaşdırma məktəblərdə ingilis dili fənnindən sonra ən şox tələb olunan dərsə çevrilib. Belə bir vəziyyətdə Çinin aparıcı təhsil təşkilatları ("Sabaha irəliləyən həyat" - Tomorrow Advancing Life və s.) təklif etdiyi təhsil xidmətlərini STEAM tədrislə əvəz edirlər. Şagirdlərin mədəni maariflənidirilməsi məqsədilə işlər həyata keçirilir, müəllimlər tədris zamanı innovativ yanaşmalardan istifadə edir, müstəqil iş və kritik təfəkkürü inkişaf etdirən layihələrdən istifadə olunur.

STEAM təhsilin tədrisində ən aktual problem dövlət məktəblərində təcrübəli müəllim çatışmazlığıdır. Ümumiyyətlə, Çində məktəb müəllimlərinə yüksək tələblərin qoyulması səbəbindən ölkədə müəllim qıtlığı yaşanır. Çin STEAM metodikasını təhsilin bütün sahələrində tətbiq etməyi qarşısında məqsəd qoyub. Bütün ölkə üzrə STEAM təhsilin inkişafına dövlət tərəfindən dəstək verilsə də, Pekin, Şanxay, Şençjen, Çenqdu kimi böyük şəhərlərdə bu metodologiya daha yüksək səviyyədə tətbiq olunur.

Hər il ÇXR-in Şanxay şəhərində "Shanghai International STEAM Education Expo" sərgisi keçirilir. Sərgidə Çinin və dünyanın digər dövlətlərinin istehsalçıları STEAM təhsilə aid məhsullarını nümayiş etdirirlər.

## STEAM məktəbəqədər təhsil müəssisələrində

Erkən təhsil uşaqların gələcək formalaşmasında çox önəmli rol oynayır. Çində məktəbəqədər təhsil müəssisələrində STEAM tədris proqramının tətbiqinə diqqət günü-gündən artmaqdadır. Ölkədə dövlət və özəl məktəbəqədər təhsil müəssisələri, beynəlxalq məktəblərin uşaq bağçaları fəaliyyət göstərir. Belə məktəbəqədər təhsil müəssisələri əsasən şəhərlərdə və inkişaf etmiş ərazilərdə cəmləşib. 3 yaşa qədər körpələr kiçik, 4 yaşlılar orta, 5-6 yaşlılar böyük uşaqlar kimi müəyyən edilir. STEAM kurikulumunun dizaynı yaş qrupuna uyğun olaraq tənzimlənir.Bu proqramlar özəl bağçalarda daha geniş tədris olunur. Ümumiyyətlə, özəl bağçalar ölkədə çoxluq təşkil edir.



Əyləncəli fəaliyyət və oyunlar vasitəsilə intellektual və motor bacarıqlar inkişaf etdirilir, uşaqların özlərini ifadə etməsi üçün çoxlu imkanlar yaradılır. Öyrənərkən körpələr tərbiyəçiləri və həmyaşıdları ilə ünsiyyət quraraq mənəvi dəyərləri mənimsəyirlər. Məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçilərin pedaqoji hazırlığına çox ciddi yanaşılır. Çində məktəbəqədər təhsil müəssisələri müəllimlərinin hazırlanması sistemi çox yüksək səviyyədə formalaşmışdır. Bağçalarda cizgi filmi və slayd formasında dərslər təşkil edilir, səhnə əsaslı tədris prosesi tətbiq olunur. Uşaqlar cizgi filmi personajları ilə birgə sanki eyni hadisəni yaşayır, araşdırmalar aparır, problemləri həll etməyə çalışırlar. Nəticədə öyrənmə davamlı, maraqlı bir prosesə çevrilir. STEAM metodikası uşaqları düzəldərək və oynayaraq qavramağa, təşəbbüs və kəşfiyyat, təcrübə və yaradıcılıqla səciyyələnən yeni öyrənmə üslubu formalaşdırmağa təşviq edir.

## STEAM məktəblərdə

Çində yerli və beynəlxalq məktəblər fəaliyyət göstərir. Məktəblərdə STEAM metodikası ibtidai sinifdən tədris olunmağa başlayır. İbtidai məktəblərin kurikulumu nəzəriyyə ilə təcrübənin birləşməsini vurğulayır. Məsələn, "Dinozavr arxeologiyası" kursunda şagirdlər ət yeyən və ot yeyən dinozavrlar arasındakı fərqlər haqqında əsas anlayışı formalaşdırdıqdan sonra, tərkibində dinozavr qalıqları olan kərpic və çəkic kimi tədris vəsaitləri ilə arxeoloji təlimi başa vuraraq fosil parçaları yığır, tam bir dinozavr halına gətirirlər. Eyni zamanda ibtidai məktəb kurikulumu tələb edir ki, şagirdlər proqramlaşdırma yolu ilə sensorlar, dəstlər istifadə və park dirəkləri, avtomatik sulayıcılar və digər kiçik ixtiralar edə bilsinlər. Eksperimental dizayn təcrübələri vasitəsilə şagirdlər öyrənməyə, yaradıcı ixtiralara və əl işləri ilə məşğul olmağa təşviq edilir. Bununla belə, ibtidai və orta məktəblərdə STEAM təhsilinin məqsədi "bacarıqlı sənətkarlar" deyil, "hərtərəfli inkişaf etmiş şəxslər" yetişdirməkdən ibarətdir.

Məktəblərdə layihə əsaslı öyrənmə tətbiq edilir, nəticə olaraq şagirdlər özləri biliklərini araşdırmaq və düşünmə qabiliyyətlərini tətbiq etmək imkanlarına malik olurlar. Şagirdlərə uğursuzluqdan qorxmamaq, əksinə, səhvlər üzərində öyrənmənin daha böyük effekt verməsi, son nəticəyə deyil, elmi araşdırma prosesi və metodlarına daha çox diqqət yetirilməsi izah olunur.

STEAM proqramın özəlliyi ondan ibarətdir ki, ayrı-ayrı fənləri deyil, tematik modulları rəhbər tutur. Müəllimin materialı izah etməyə sərf etdiyi vaxt minimuma endirilir, şagirdlərin müstəqil işləməsinə daha çox vaxt ayrılır. Digər üstünlük şagirdlərin bir yerdə oturmamağı, aktiv fəaliyyət göstərməsi ilə ölçülür. Şagirdlər müşahidələrini rəqəmsal bloknota köçürür, şəxsi təcrübə və tədqiqatlarını aparırlar. Robot texnikası, robotların yığılması və proqramlaşdırılması, Lego Education vasitəsilə öyrənmə şagirdlərdə komanda işi, ideya irəli sürmək və nəticəni prezentasiya etmək bacarıqları formalaşdırır. Bütün hallarda STEAM təhsil şagirdlərə lazımi informasiyanı hiss olunmayacaq şəkildə yadda saxlamağa imkan verən tədris metodlarından istifadə və akademik motivasiyanı dəstəkləyir.

Çində fəaliyyət göstərən özəl və beynəlxalq məktəblər "Təhsil Texnologiyası" (Educational Technology) tətqiqat təşkilatı ilə birgə STEAM metodikası çərçivəsində tətbiqi proqramlar işləyirlər. Bəzi məktəblər müstəqil olaraq şəxsi STEAM tədrisi proqramları hazırlayır. Proqramların sistematik olması və cari fənlərlə əlaqələndirilməsi çox vacib məsələdir və yüksək peşəkarlıq tələb edir. STEAM proqramlar hazırlayan kadrlar yetişdirmək məqsədilə ölkəyə ABŞ, Sinqapur, Yaponiya, Koreya və digər ölkələrdən seminarlar keçmək üçün yüksək səviyyəli mütəxəssislər dəvət olunur və ya həmin ölkələrə təcrübə keçmək üçün heyət göndərilir.

## STEAM ali təhsildə

Süni intellekt, kvant hesablaması, biotexnologiya, kosmosun araşdırılması və digər sahələr üzrə Çin ABŞ-la müntəzəm rəqabət aparmaqdadır. Bu səbəbdən də ölkədə STEM sahəsi üzrə mütəxəssislərin yetişdirilməsi ölkənin milli prioriteti hesab olunur. UNESCO-nun Statistika İnstitutunun hesabatlarına əsasən Çin STEM məzunlarının sayına görə (ildə 4,7-5 milyon məzun) dünyada birinci yerlərdə durur. Çin dövlətinin 2020-2021-ci il hesabatına görə, ölkə universitetləri ABŞ-dan daha çox STEM sahələri üzrə fəlsəfə doktorları hazırlayıb (ABŞ-40 min, Çin-77 min nəfər).

Çinin ali təhsil müəssisələri dünyanın ən yaxşı universitetləri sırasında yer alır və dünya universitetləri reytinqlərinin nüfuzlu pillələrində qərarlaşırlar. ABŞ-ın "U.S. News and World Report" və Britaniyanın "QS Top Universities" dərgilərinə əsasən Çində STEM sahələr üzrə ixtisaslaşmış ən yaxşı ali məktəblərdən Tsinxua, Pekin, Huazhonq Elm və Texnologiya, Şanxay Jiao Tonq, Cənub-Şərq, Mərkəzi Cənubi, Çin Elektronika Elmləri və Texnologiya, Dalian Texnologiya, Tonqji, Hunan, Çin Elm və Texnologiya, Şimal-Qərb Politexnik, Nankin, Çejianq, Fudan, Uxan universitetlərinin, Beijinq, Harbin Texnologiya institutlarının və s. onlarla ali təhsil müəssisəsinin adlarını çəkmək olar.

Çində STEM təhsilin öyrənilməsi ilə məşğul olan çoxlu sayda pedaqoji universitet fəaliyyət göstərir. Həmin təhsil müəssisələrinin dərc etdiyi elmi işlərə əsasən onlardan ən məhsuldar, Çində STEM təhsilə ilk diqqət yetirən və araşdıran Şərqi-Çin Pedaqogika Universitetini qeyd etmək olar. Eyni zamanda Pekin, Şimal-Şərqi, Şensi və Nankin pedaqoji universitetləri də bu sahədə çox mükəmməl tədqiqatlara sahibdirlər.

2018-ci ildə Pekində "STEM təhsili üzrə fəaliyyət planı"nın təqdimatı baş tutub. Bu plan, mümkün qədər çox ali məktəb tələbəsinin STEM təhsilindən faydalanmasına imkan vermək və bütün tələbələri elmi təfəkkür və innovasiya qabiliyyəti ilə təmin etmək məqsədi daşıyır. Plan çərçivəsində elm adamları və müəssisələr arasında əməkdaşlıq vasitəsilə resursların birləşdirilməsi, institutların, istedadların, cihazların, fondların və layihələrin səfərbər edilməsi, elmi və texnoloji innovasiyaları təşviq edə bilən alim-müəssisə əməkdaşlığı diqqət çəkən məqamlardır.

XXI əsrdə Çin Xalq Respublikasının təhsilə ayırdığı investisiyalar hesabına ölkəni gələcəyə apara biləcək yeni nəsil mühəndislər yetişdirilib. Tsinxua Universitetinin məzunu və Çinin Şəhər Tikinti Layihə və Tədqiqat İnstitutunun baş mühəndisi Ksyu Haiyun "China Daily" qəzetinə müsahibəsində bildirib ki, "biz mühəndislik texnologiyası sahəsində əldə etdiyimiz irəliləyiş nəticəsində dünyanın ən hündür binalarını, körpülərini, dəmir yollarını inşa etdik". Çalışqanlığı və rəqabət qabiliyyətliliyi ilə seçilən Çin cəmiyyəti yüksək təhsil əldə etməsi nəticəsində qısa zaman ərzində bir milyard insanı yoxsulluqdan çıxarmağa nail olub və dünyanın ən sürətlə inkişaf edən dövlətinə çevrilib. Çində təhsilə verilən dəyər ölkənin tarixi qədər qədimdir.

**Lamiyə ƏLİMƏRDANOVA**

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

aşağıdakı vakant vəzifələri tutmaq üçün müsabiqə

**ELAN EDİR**

| Kafedra | Vəzifə | Yer |
|---|---|---|
| Xalq çalğı alətləri ifaçılığı kafedrası | Professor | 1 |
| | Dosent | 2 |
| | Baş müəllim | 1 |
| İnstrumental ifaçılıq kafedrası | Baş müəllim | 1 |
| | Müəllim | 1 |
| Muğam sənəti kafedrası | Dosent | 1 |
| Musiqi tarixi və nəzəriyyəsi kafedrası | Müəllim 0,5 ştat vahidi | 1 |
| Aşıq sənəti kafedrası | Dosent | 2 |
| Turizm və kitabxana-informasiya fəaliyyəti kafedrası | Professor | 1 |
| | Müəllim | 1 |
| Kinoşünaslıq və ekran dramaturgiyası kafedrası | Dosent | 1 |
| | Müəllim | 1 |
| Sosial-siyasi elmlər kafedrası | Dosent | 1 |
| Muzeyşünaslıq kafedrası | Baş müəllim | 1 |
| Dizayn və dekorativ-tətbiqi sənət kafedrası | Baş müəllim | 1 |
| Teatrşünaslıq kafedrası | Baş müəllim | 1 |
| Təsviri sənət kafedrası | Baş müəllim | 1 |
| Dram teatrı və kino aktyoru kafedrası | Baş müəllim | 2 |

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:**
Bakı şəhəri,
AZ 1065, İnşaatçılar 39

**Telefon:**
599-00-54 (daxili-100)

**REKTORLUQ**


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti,
529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 1030 **Sifariş** 137

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Bakı Plan İqtisad Texnikumu** tərəfindən 1988-ci ildə Sarıyeva Mətanət Tumarxan qızına verilmiş KT-025919 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2016-cı ildə Hacıəliyeva Şəms Habil qızına verilmiş A-089351 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyası** tərəfindən 2012-ci ildə Qarayev Rəşad Sədaqət oğluna verilmiş BC-245515 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyanın** IX sinfini (xüsusi təhsil) 1998-ci ildə bitirmiş Muradov Kamal Vaqif oğluna verilmiş şəhadətnamə (nömrəsiz) itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər Məktəb-Lisey Kompleksi** 2021-ci ildə bitirmiş Əliyeva Kamilə Elçin qızına verilmiş E-360237 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 55 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Həsənov Toğrul Şamil oğluna 2017-ci ildə verilmiş A-590218 nömrəli dublikat attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** K.Səfərəliyeva adına 16 nömrəli Uşaq musiqi məktəbinin VII sinfini 2018-ci ildə bitirmiş Bayramov Nurlan Namiq oğluna verilmiş A-1179 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci** tərəfindən 2013-cü ildə Tapdıqlı Heydər Şükran oğluna verilmiş AA-027097 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Başgöynük kənd 2 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Yusifova (Həsənova) Zoya Çingizxan qızına verilmiş A-066559 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xarkov Dövlət Qida Texnologiyası və Ticarət Universiteti** tərəfindən 2014-cü ildə Əliyev Kamil Təvəkkül oğluna verilmiş ДІ-044067 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci tərəfindən 2020-ci ildə Qədirov İsmayıl Pərvizoviçə verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2007-ci ildə Məmmədova (Hüseynova) Şəfəq Bakir qızına verilmiş B-063466 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı Dəmiryolu Nəqliyyat Texnikumu** tərəfindən 1979-cu ildə Hacıyev Nazəddin Məmməd oğluna verilmiş БТ-605725 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Musaküçə kənd tam orta məktəbi 1982-ci ildə bitirmiş Abbasova Zərəfşan Möhübbət qızına verilmiş 533698 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Novoivanovka kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Rəşidli (Əsədullayev) Elçin Zəlimxan oğluna verilmiş 666404 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Çirinqova Məryəm Hacı qızına verilmiş 992480 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 284 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Rəhimli Rəşad Elşad oğluna verilmiş EN-264257 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 82 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş Əfəndiyev Yalçın Rafiq oğluna verilmiş 007157 nömrəli (nümunəvi qızıl) attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 223 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Əhmədova Yeganə Akif qızına verilmiş A-021612 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayonu** Ağstafa şəhər 2 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Quliyeva Mədinə Şahin qızına verilmiş A-126823 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 135 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Fətəliyev İsmayıl Zaur oğluna verilmiş E-135615 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2013-cü ildə Seyidova Nərgiz Rauf qızına verilmiş A-006070 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Qabıllı kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Cəfərov Həsən Kərim oğluna verilmiş A-210969 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Çalxanqala kənd tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş AbbasovYenibar Səfər oğluna verilmiş A-599419 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Yardımlı rayon** Alçabulaq kənd tam orta məktəbi 1986-cı ildə bitirmiş Hüseynov Şamil Feyzi oğluna verilmiş A-204534 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Türk Dünyası Mədəniyyət Birliyinin** şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

**Gəncə Tibb Kolleci** tərəfindən 2019-cu ildə Həsənova Xəyalə Yolçu qızına verilmiş AA-128654 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Hil kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Hacıyev Şənlik Vidadi oğluna verilmiş A-201140 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Hil kənd tam orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Süleymanov Zaur Şixbala oğluna verilmiş B-050448 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Quxur oba kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Səmədova Hicran Arif qızına verilmiş A-460619 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 3 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Şükürova Rəvanə Əyyar qızına verilmiş B-152133 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Mahrızlı kənd tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Əlizadə Fəridə Akif qızına verilmiş A-488329 nömrəli şəhadətnamə və 2009-cu ildə verilmiş B-657115 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abbas Səhhət adına 8 nömrəli Tibb Məktəbi** tərəfindən 1972-ci ildə Tağıyev Cahangir Abdulla oğluna verilmiş Ц-542530 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2009-cu ildə Musayev Səid Akif oğluna verilmiş B-153224 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**4 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2004-cü ildə Kərimova Zita Mürvət qızına verilmiş AB-076699 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 55 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Abasova Sevinc Mulhac qızına verilmiş A-225513 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**C.Naxçıvanski adına Hərbi Liseyi** 1999-cu ildə bitirmiş İsmayılov Ceyhun Əbülfət oğluna verilmiş attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 7 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Pirəliyev Fərid İsmayıl oğluna verilmiş A-332561 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** 4 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Səlimova (Əliyeva) Aytək Natiq qızına verilmiş A-055103 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Dövrüşlü kənd tam orta məktəbi 2017-ci ildə bitirmiş Almazova Aygün Murad qızına verilmiş E-057548 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Culfa rayon** Yaycı kənd 1 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Musayev Musa Muxtar oğluna verilmiş A-275370 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Sosial İdarəetmə İnstitutu** (indiki Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) tərəfindən 1994-cü ildə İsmiyev Ağaismi Xanmirzə oğluna verilmiş AB-I-028028 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 277 nömrəli İdman Təmayüllü tam orta məktəbi 2017-ci ildə bitirmiş Məmmədov Elvin Rəşad oğluna verilmiş E-009005 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 100 nömrəli köçkün orta məktəbi 2007-ci ildə bitirmiş Musayeva Məzayə Fazil qızına verilmiş B-424901 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Novosaratovka kənd orta məktəbin VIII sinfini 1988-ci ildə bitirmiş Əliyev İlyas Sabir oğluna verilmiş 202566 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Novruzov qardaşları adına 36 nömrəli tam orta məktəbi** 2019-cu ildə bitirmiş Əliyeva Məryəm Cahangir qızına verilmiş E-196941 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 2 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Məmiyev Rəmzi Eldar oğluna verilmiş E-115893 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Xanqərvənd kənd tam orta məktəbi 1985-ci ildə bitirmiş Əhmədova Xatirə Cahangir qızına verilmiş 039619 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** II Çaylı kənd ümumi orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Ədilova (Ağayeva) Sevda Əjdər qızına verilmiş A-052035 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** akademik Zərifə Əliyeva adına məktəb-liseyi 2015-ci ildə bitirmiş Qənbərov Qənbər Ələmdar oğluna verilmiş A-472626 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 223 nömrəli tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Vahidov Eldar Vaqif oğluna verilmiş AR-00519 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 246 nömrəli məktəb-liseyi 1989-cu ildə bitirmiş Tyajeva (Dolivets)Tatyana Anatolyevnaya verilmiş 596666 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xocalı rayon** Başkənd kənd qiyabi tam orta məktəbi 2003-cü ildə bitirmiş Heydərov Müşfiq Kərəm oğluna verilmiş A-648029 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xocalı rayon** Başkənd kənd qiyabi tam orta məktəbi 2002-ci ildə bitirmiş Heydərova Toyxanım Kərəm qızına verilmiş A-589821 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Neft-Energetika Kolleci** tərəfindən 1999-cu ildə Heydərov Rəfail Əsgər oğluna verilmiş AB-II-026536 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Mahmudkənd tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Rəsulova (Şükürova) Rasimə Rövşən qızına verilmiş A-275346 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 248 nömrəli tam orta məktəbin XII sinfini 1998-ci ildə bitirmiş Əhmədov Ceyhun Əsgər oğluna verilmiş A-030470 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**149 nömrəli Bakı Texniki Peşə Məktəbi** tərəfindən 1996-cı ildə Məmmədov Asif İmdat oğluna verilmiş AB-001594 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**149 nömrəli Bakı Texniki Peşə Məktəbi** tərəfindən 1996-cı ildə Məmmədov Arif İmdat oğluna verilmiş AB-001595 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2017-ci ildə Cəfərli Arzu Kərəm qızına verilmiş A-123688 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

İstedadlar

# "Mənə ildə 80 min dollar təqaüd ayrılır"



*Abutalıb Namazov, Massaçusets Texnologiyalar İnstitutunun tələbəsi:*

## "Hər addımda təşəkkür edirlər, sağ ol ki, MIT-ı seçmisən"

⇦ Əvvəli səh.1

Oradakı mühit, tələbələrin can atdığı nəticələr, yaradıcılıq ruhu səni dəyişir, artıq sevinmək və qürrələnmək əvəzinə düşünürsən ki, fürsətdir, burada çox şey öyrənə bilərəm. Baxırsan ki, hamı diplom almaq üçün kifayət edən dərslərdən əlavə çox çətin dərslər götürür. Bir də baxırsan ki, ikinci kursda magistraturada nəzərdə tutulan və çox çətin bir dərsi götürmüsən. Hamı can atır ki, daha çox şey öyrənsin. Mən də eyni mühitə düşdüm. Gördüklərimdən sonra anladım ki, həqiqətən də bura bir Toni Starkın (İron Man, Dəmir Adam) çıxacağı yerdir. Bizi həm də elə coşdururlar ki, dayanmadan çalışırıq və yorulmuruq. Hər kəs inanır ki, dünyanı yaxşıya dəyişmək üçün töhfə verə biləcək. Çox maraqlı dərslər, fərqli sosial və akademik imkanlar, dünyanın hər yerindən istedadlı adamlar, nəhəng alimlər var. Hər şey ədalətli və insan naminə qurulub. Nə gizlədim, özümü yerimdə və gözəl hiss etməyə başladım.

Xüsusən də insanlığı və ədaləti hiss etmək çox gözəldir. Məsələn, mənə ildə 80 min dollar təqaüd ayrılır. Amma hər addımda təşəkkür edirlər, sağ ol ki, MIT-ı seçmisən.

### "İlk şey hamının bir-birinə böyük dəstəyini görməyim oldu"

- *Artıq bir müddətdir ki, MIT tələbəsi adını daşıyırsınız. İlk təəssüratlarınız necə oldu? "Mən burada oxuya biləcəyəmmi" kimi düşüncələriniz oldumu? MIT mühitinə adaptasiyanız necə keçdi?*

- MIT-a qəbul olduqdan və sevinc tufanından çıxdıqdan sonra mən də özümə sual verdim ki, belə bir yerdə, akademik tərəfdən belə güclü tələbələrlə bir yerdə oxumaq, ümumiyyətlə, mənim üçün mümkün olarmı? Bu düşüncələr digər tələbələr ilə söhbətdən sonra bir az daha yumşaldı - görürsən ki, hamı eyni cür düşünür. Amma məni heyrətləndirən və bu sualın cavabını tapmağa kömək edən ilk şey isə hamının bir-birinə böyük dəstəyini görməyim oldu. Hətta, onlayn şəraitdə olsa belə, bir çox platformada tələbələr olaraq bir-birimizlə əlaqəmiz geniş idi. İstər dərslər haqqında, istər ümumi, bütün sualların cavabını tapmağa kömək etməyə kimsə var idi. Mənim atam həmişə deyirdi ki, azərbaycanlılar çox istedadlıdır. Düşünürdüm ki, məndə özünə inamı artırmaq üçün belə deyir. O, haqlı idi.

Mən gördüm ki, heç kimdən geridə deyilik və uşaqlarımız çox potensiallıdır. Gözüm yoldadır, bizdən yeni gəlişlər gözləyirəm.

### "İlk semestrimi Bakıda evdən oxumalı oldum"

- *Hazırda MIT-da tədris necə təşkil olunub? Pandemiya universitetin tədris mühitinə, müəllim-tələbə münasibətlərinə necə təsir edib? Dərsləriniz barədə nə deyə bilərsiniz?*

- MIT-da oxumaq haqqında hər yerdə "yanğınsöndürən hortumundan su içmək" ifadəsini deyirlər. Bu hissi, məncə, bura gələn hamı yaşayır. Bəzən limitsiz görünən dərslər və işlər olur. Bunun hamısının üstündən gəlməyin isə əsas yolu hamısını sevərək etməkdir. Başqa tələbələr ilə bir yerdə işləmək, onlarla tapşırıqlar üzərində fikir mübadiləsi aparmaq, bir-birimizin səhvlərini düzəltmək işi daha da maraqlı edir və asanlaşdırır. Dərslərin demək olar ki, hamısında, tapşırıqlar üçün başqaları ilə bir yerdə işləmək tövsiyə olunur və bəzən bu halda əlavə bal verilir (məsələn, 1 bal). Bundan əlavə, professorlar və professor köməkçiləri həmişə kömək etməyə hazırdırlar. Birbaşa onlardan suallar soruşmaq üçün onlayn platformalardan əlavə, onların ofis saatları olur, hansı ki, biz həmin vaxtlarda onlarla canlı şəkildə söhbət edə bilərik.

Pandemiyanın ilk dövrlərində dərslər onlayn şəkildə oldu. Buna görə də, ilk semestrimi Bakıda evdən oxumalı oldum. Təbii ki, bu, çətin idi və üz-üzə dərslərin yerini heç vaxt vermir. Amma bizə olan əlavə dəstək ilə birlikdə yaxşı oxumaq mümkün oldu. Hətta, pandemiya dövründə onlayn şəraitin yaxşılaşması üçün bir neçə yeni vəsaitlər və ya proqramlar hazırlandı, hansı ki, onların hətta üz-üzə formatda belə faydalı olduqları ortaya çıxdı. Hazırda dərslər pandemiya qaydalarına riayət olunmaq şərtləri ilə üz-üzə keçir. Bəzi sosial fəaliyyətlər məhdud olsa da, çox şey normal hala dönməyə doğru gedir.

### "Hədəf birdir - ciddi çalışmaq, sevərək etmək"

- *Bir çoxları üçün "MIT-da təhsilin əlçatmaz"lığı sindromunu sındıran Abutalıb Namazov üçün uğurun sirri nədədir?*

- Bu sualın qısa cavabı uzun illər ərzində olan davamlı zəhmət və məqsədyönlülükdür. Düzdür, top universitetlərdə təhsil almaq üçün bir az şans da rol oynaya bilər, amma hədəfini ən yüksək tutan şagird o hədəf üçün ciddi çalışsa, zirvəyə yaxın dayanar. Universitetlərə qəbulda çox faktor var, burada, bəzən, hətta, yaxşı voleybol oynaya bilmək də fərq edə bilir, amma əsas hədəf birdir. Ciddi çalışmaq və bunu sevərək etmək lazımdır. Son iki ildə Amerika universitetlərinə azərbaycanlı şagirdlərin müraciətləri kəskin şəkildə artıb və mən başqa top universitetlərdən alınan qəbullar haqqında eşitmişəm. Bu, çox sevindirici haldır.

### "Müəllimlərimə, komandaya, ailəmə, dostlarıma minnətdaram"

- *Əldə etdiyiniz uğurlara görə ilk növbədə kimlərə minnətdar olduğunuzu söyləyə bilərsiniz?*

- Mənim uğurlarımda çox adamın rolu olub. Müəllimlərimə, olimpiada fəaliyyətini təşkil edən komandaya, ailəmə, dostlarımıza, hətta sosial şəbəkələrdə dəstək olan və motivasiyaverici mesajlar yazan tanımadığım adamlara təşəkkür edirəm. Ayrıca mənə atamdan və anamdan çox zəhmət çəkən, məni onlardan da çox sevən, balacalıqdan məktəbə və dərslərə daşıyan bibim Tahirəyə çox minnətdaram.

### "Bu, özüm tərəfindən sınanmış təcrübədir"

- *Həm riyaziyyat, həm də informatika elmlərində eyni dərəcədə uğurlu olmaq, sizcə nə dərəcədə mümkündür?*

- Bu sualı məndən eyni ildə iki medal aldığım üçün çox soruşublar. Mən də həmişə eyni cavabı vermişəm: bu iki fənn çox da ayrı fənlər deyillər. İnformatika və kompüter elmləri riyaziyyata çox bağlıdır və orada uğur qazanmaq üçün riyaziyyat bilikləri mütləqdir. Mən bu fürsətdən istifadə edib hər iki fənn üzrə daha dərin çalışmağı qərara aldım və deyə bilərəm ki, bu iki ixtisas bir-biriərini öyrənməyə kömək edir. İnformatika olimpiadaları ilə məşğul olan şagirdlərə riyaziyyatı (əsasən diskret riyaziyyat) çox yaxşı öyrənmələrini, riyaziyyat olimpiadaları ilə məşğul olan şagirdləri isə proqramlaşdırma öyrənib özlərini informatikada sınamalarını tövsiyə edirəm. Bu, özüm tərəfindən sınanmış təcrübədir. Bizim riyaziyyat üzrə olimpiada sinfindən mənim informatika fənninə cəlb etdiyim sinif yoldaşlarım orada qısa müddətdə çox uğurlu oldular. Hazırda isə məndən başqa hər iki olimpiadada iştirak edən şagirdlər görürəm. Buna sevinirəm. Onu da deyim ki, bu, dünyada geniş yayılan bir təcrübədir.

### "Sevgisi böyük olanlar uğuru tapırlar"

- *Olimpiadalardan dünyanın bir nömrəli universitetinə uzanan yol. Bu yolu seçən həmyaşıdlarınıza nə kimi tövsiyələriniz var? Yaxşı olimpiadaçını necə hazırlamaq olar?*

- Olimpiadalar top universitetlərə getmək üçün, həqiqətən də, çox effektiv və maraqlı üsuldur. Amma daha vacibi odur ki, olimpiadalar biliklər öyrənmək marafonudur və sənə imkan verir ki, çox dərin və uzun öyrənmə prosesi keçə biləsən. Burada çox böyük zəhmət tələb olunur. Odur ki, bu işi sevərək və əzmlə etmək mütləqdir. Çəkilən ağır zəhmət isə ən sonda həmişə bəhrəsini verir. Uğursuzluqlar da olur, amma onlardan üzülmək yerinə daha çox çalışmaq lazımdır. İnformatika fənni, mən qoşulanda, yəni 2017-ci ildə, bəlkə də ən uğursuz olduğumuz fənn idi. Mənim özüm də bu uğursuzluqlardan keçdim, amma heç vaxt ümidimi və məsələ həll etməyə olan sevgimi itirmədim. Mənim və bizim komandanın əzmi bu sahədə uğur qazana biləcəyimizi sübut etdi.

Bunu da demək lazımdır ki, heç də hamı olimpiadaçı olmalı deyil. Uğura getməyin digər yolları da var. Olimpiada bu yollardan biridir və effektli olmağı sözsüzdür, amma mənə MIT-da dərs keçən professorların çoxu olimpiadaçı olmayıb. Nə də ki, dünyanın ən böyük riyaziyyatçılarının çoxu. Öz sahəsinə sevgisi böyük olanlar uğuru necə olsa da, tapırlar. Olimpiadalara necə hazırlaşmağın yaxşı yolu haqda isə onu deyim ki, bunun bütün dünyada bəlli olan yolları var, ədəbiyyat və sillabus bəllidir. Yaxşı müəllimlərlə yorulmaq bilmədən, sevərək çalışmağı təmin etməlisən.

### "Öyrənməli çox şey var"

- *Gələcəklə bağlı nə kimi planlarınız var?*

- Hazırkı planım dərslərimi yüksək səviyyədə oxumaq və MIT-də olduğum müddətdən ən geniş şəkildə faydalanmaqdır. Öyrənməli çox sey var. İxtisasım kompüter elmləridir. Çoxlu riyaziyyat dərsləri də alıram. Düzü, burada o qədər yenilik görürəm ki, gələcəklə bağlı planlarım və düşüncələrim cilalanmaqda davam edir. Düşünürəm ki, magistr təhsilimi də elə burada davam etdirim. Ona kimi isə, yəqin ki, gələcəklə bağlı fikirlərim daha da formalaşar və əlimdə olan imkanlar mənə qərar verməyə kömək edər.

**Oruc MUSTAFAYEV**

**Tanıtım.** 2003-cü il aprelin 28-də Bakıda anadan olub. 2009-cu ildə 100 nömrəli tam orta məktəbin I sinfinə gedib. Təhsil Nazirliyinin nəzdindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin VII sinfinə qəbul olunub. 2015-2016-cı dərs ilində keçirilən fənn olimpiadalarının Respublika turunda ilk dəfə informatika üzrə bürünc medala layiq görülüb. VIII sinifdən həm riyaziyyat, həm də informatikadan olimpiada hazırlıqlarına başlayıb. 2016-2017-ci dərs ilində respublika fənn olimpiadalarının yekun turunda uğurla iştirak edərək respublikada ilk dəfə olaraq iki fəndən olimpiadanın yüksək medallarına layiq görülüb. İnformatikadan qızıl, riyaziyyatdan isə gümüş medal qazanıb. Orta məktəb illərində respublika fənn olimpiadalarında informatika üzrə 4 qızıl, 1 bürünc, riyaziyyat üzrə 1 gümüş medal əldə edib. 2017-ci ildə Rusiya Ali İqtisad Məktəbinin təşkil etdiyi Gənc Riyaziyyatçılar Olimpiadasında I dərəcəli diplomla təltif olunub. Həmin ildə Avropa Gənclərinin İnformatika Olimpiadasında (EJOI) bürünc, Balkan Riyaziyyat Olimpiadasında (JBMO) gümüş medallarla mükafatlandırılıb. 2019-cu ildə Moskvada Beynəlxalq Meqapolis Olimpiadasında gümüş, 2020-ci ildə XVI Beynəlxalq Jautikov Olimpiadasında isə qızıl medala layiq görülüb. Bu, informatika üzrə Beynəlxalq Olimpiadadan gətirilən ilk qızıl medal idi. O, 2020-ci ildə Sinqapurda keçirilən 32-ci Beynəlxalq İnformatika Olimpiadasında da bürünc medal qazanıb. Ümumilikdə respublika fənn olimpiadalarından 3 qızıl, 1 gümüş, 1 bürünc, beynəlxalq olimpiadalardan 1 qızıl, 5 gümüş və 4 bürünc medalı aktivinə yazdırıb. Orta təhsilini də qızıl medalla yekunlaşdırıb. Bu sadalanan uğurlardan sonra ən böyük nailiyyəti tam təqaüdlə ABŞ-ın Massaçusets Texnologiyalar İnstitutunun tələbəsi adını qazanmasıdır.

# Azərbaycan Texniki Universitetində mediatur təşkil olunub

Azərbaycan Texniki Universitetində (AzTU) 2021/2022-ci tədris ili üzrə keçirilən qış imtahan sessiyasını izləmək, proseslə daha yaxından tanış olmaq məqsədilə mediatur təşkil olunub. Mediaturda AzTU-nun İctimai Şurasının üzvləri, KİV nümayəndələri, ziyalılar və tələbələrin valideynləri iştirak edib.

Qeyd edək ki, AzTU-da təşkil olunan qış imtahan sessiyası şifahi (texniki fənlər) və test (humanitar fənlər) üsulu ilə keçirilir. Şifahi imtahanların keçirilməsi üçün müşahidə kamerası və səsyazma cihazı ilə təmin olunan 75 imtahan otağı mövcuddur. Test imtahanları isə kompüter zallarında təşkil olunub. Xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq imtahanda iştirak edən bütün tələbələr tibbi maska və digər qoruyucu vasitələrdən istifadə edib. Həmçinin imtahan zamanı tələbələr arasında sosial məsafənin qorunmasına riayət olunub.

Onu da nəzərə çatdıraq ki, koronavirusa yoluxmuş tələbələr üçün sessiya bitdikdən sonra xüsusi imtahan günləri təyin olunacaq. İmtahan sessiyası başlayandan bu günə kimi 5 magistrant və 2 bakalavr koronavirusa yoluxub.

Mediaturdan sonra AzTU-nun rektoru, professor Vilayət Vəliyev jurnalistlərin suallarını cavablandırıb. Rektor bildirib ki, universitetdə aparılan islahatların əsas hədəfi tədris olunan fənlərin sayının azaldılmasına yönəlib. Hazırda tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində də mühüm işlərin həyata keçirildiyini deyən rektor növbəti tədris ilində universitetin müasir kitabxanasının istifadəyə verilməsinin nəzərdə tutulduğunu da jurnalistlərin diqqətinə çatdırıb.

Mediaturda təhsil eksperti, professor Şahlar Əsgərov son illər ali təhsil ocağında aparılan məqsədyönlü işlərdən söz açıb. AzTU-da tədrisin keyfiyyətinin artırılması istiqamətində xeyli işlər görüldüyünü bildirib.

Millət vəkili Etibar Əliyev imtahan prosesini maraqla izlədiyini, tələbələrlə söhbətlər apardığını bildirib. Universitetdə qış imtahan sessiyasının yüksək səviyyədə təşkil olunduğunu deyən millət vəkili ali təhsil ocaqlarında elmi mühitin daha da yaxşılaşdırılması istiqamətində xeyli işlərin görülməsinin vacibliyindən danışıb.

Mediaturda digər iştirak edənlər də prosesin şəffaf, obyektiv keçirildiyini bildirib.

Qeyd edək ki, AzTU-da qış imtahan sessiyası fevralın 2-də yekunlaşacaq.

**Niyazi RƏHİMOV**

# İctimai Şuranın üzvləri BSU-da imtahan sessiyasının monitorinqini keçiriblər

Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri — millət vəkili Etibar Əliyev, Məleykə Əlizadə və Pərvanə Məmmədova 2021-2022-ci tədris ilinin payız semestrinin qış imtahan sessiyasının monitorinqinin keçirilməsi məqsədilə Bakı Slavyan Universitetində (BSU) olublar.

Şura üzvləri BSU-nun xarici dillər fakültəsində keçirilən semestr imtahanlarını və təhsil fakültəsində Yekun Buraxılış Dövlət Attestasiyasını izləyib, imtahan sualları ilə tanış olub, tələbələrə uğurlar arzulayıblar. Həmçinin imtahan yoxlama və kodlaşdırma otaqlarının, Apelyasiya komissiyalarının, Əsaslı kitabxananın, Tərcümə və leksikoqrafiya elmi-tədqiqat laboratoriyasının fəaliyyəti ilə tanış olublar.

BSU-nun rektoru səlahiyyətlərini icra edən siyasi elmlər üzrə fəlsəfə doktoru Anar Nağıyev qış imtahan sessiyasının təşkili və keçirilməsi qaydaları, statistik göstəricilər barədə geniş məlumat verib. Vurğulanıb ki, sessiyanın təşkilinə və gedişinə nəzarət etmək məqsədilə universitet rəhbərliyi, valideyn şuraları, tələbə təşkilatları, müvafiq struktur bölmələrin nümayəndələrindən ibarət İmtahan Qərargahı, fakültələrdə Apelyasiya komissiyaları fəaliyyət göstərir.

İctimai Şuranın üzvləri imtahan sessiyasının şəffaf və obyektiv keçirilməsindən məmnun qaldıqlarını bildiriblər.